Azərbaycan dili və ədəbiyyat tədrisi
2026 / Cild 72, Nömrə 3 / 23–31
https://doi.org/10.48445/m3932-3191-6705-q

Azərbaycan dilinin bədii üslubunda bəzi bəzək əşya adlarının etnoqrafik təhlili

Səbinə Vəliyeva [1]

XÜLASƏ

Türkologiyada və Azərbaycan dilçiliyində geyim və zərgərlik lüğətinin tədqiqi tarixi dilçiliyin həll olunmamış problemlərindən hesab olunur. Mövcud tədqiqatlarda, dilçiliyə aid bəzi əsərlərdə bunlar haqqında yalnız qısa məlumat verilir. Hazırda bu tematik lüğət qrupu müxtəlif sahələrin elm adamlarının tədqiqat obyektidir. Türk mədəniyyətinin, etnoqrafiyasının və dilinin öyrənilməsi ilə bağlı mənbələrə və elmi ədəbiyyata nəzər saldıqda "Geyim və zərgərlik" tematik qrupuna daxil olan leksemlər türk dillərinin lüğət tərkibində mühüm yer tutduğu anlaşılır. Aparılan təhlillərə əsasən belə nəticəyə gəlmək olar ki, əksər türk dillərində lüğətin bu qolu məişət lüğəti çərçivəsində tədqiq edilmişdir. Hazırda bəzi türk dillərində geyim və zinət əşyalarının lüğəti ilə bağlı monoqrafik tədqiqatlar aparılır.

AÇAR SÖZLƏR

Azərbaycan dili, bədii üslub, bəzək əşyaları, sırğa, qadın bəzək əşyaları

MƏQALƏ TARİXÇƏSİ

Göndərilib: 09.05.2026
Qəbul edilib: 14.08.2026

[1]Filologiya üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti. Azərbaycan
https://orcid.org/0009-0007-3197-0754 | nasibali2011@mail.ru

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Teaching of Azerbaijani Language and Literature
2026 / Volume 72, Number 3 / 23–31
https://doi.org/10.48445/m3932-3191-6705-q

Ethnographic analysis of names of decorative items in the artistic style of the Azerbaijani language

Sabina Valiyeva [1]

ABSTRACT
The study of clothing and jewelry vocabulary in Turkology is considered one of the unsolved problems of historical linguistics.In existing studies, the emphasis is placed only on linguistic works, but it has also been established that this thematic vocabulary group is the object of research by scholars from various fields of science. A review of sources and scientific literature related to the study of the culture, ethnography and language of the Turks allows us to confirm that the lexemes included in the thematic group "Clothing and jewelry" occupy an important place in the vocabulary of the Turkic languages. Based on the analyses conducted, it can be concluded that in most Turkic languages, this branch of vocabulary has been studied within the framework of everyday vocabulary; Today, monographic studies are being conducted on the vocabulary of clothing and jewelry in some Turkic languages.

KEYWORDS
Azerbaijani language, art style, jewelry, earrings, women's jewelry

ARTICLE HISTORY
Received: 09.05.2026
Accepted: 14.08.2026

[1]Doctor of Philosophy in Philology, Baku State University. Azerbaijan
https://orcid.org/0009-0007-3197-0754 | nasibali2011@mail.ru

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

"Azərbaycan dilinin bədii üslubunda bəzək əşyası adlarının etnoqrafik təhlili" mövzusu həm dilçilik, həm də etnoqrafiya baxımından zəngin tədqiqat imkanları yaradır. Bəzək əşyaları obrazların xarakterik xüsusiyyətlərini, sosial statuslarını və bəzən də emosianal hallarını ifadə edən simvolik element kimi çıxış edir.

Azərbaycan dilində geyim və bəzək əşyalarının adlarını ifadə edən leksemler dilin lüğət tərkibinin geniş hissəsini təşkil etməklə yanaşı, zəruri olan həyati anlayışları da ifadə edir. Azərbaycan dili lüğətinin bu sahəsinin öyrənilməsi müəyyən dərəcədə xalqın maddi mədəniyyəti, indiki və tarixi keçmişi ilə tanış olmağa şərait yaradır. Ayinlər, bayramlar, əyləncələr və adət-ənənələr hər bir geyimləri, bəzəkləri ilə sıx bağlıdır. Xalqımız hər hansı tarixi şəraitdən asılı olmayaraq, digər xalqlarla müqayisədə mədəniyyətini, şifahi poeziyasının müxtəlif janrlarını, musiqi və dekorativ-tətbiqi sənətini qoruyub saxlamağa nail olmuşdur. Belə tədbirlər zamanı müxtəlif parlaq elementlərlə yanaşı, kilimlərdən, zinət əşyalarından və zərif geyimlərdən də geniş istifadə olunurdu. Bayram iştirakçıları parlaq geyimlərlə, gözəl zinət əşyalarla bəzənməyə çalışırdılar. Bədii üslubun dilində xalqımıza məxsus olan milli geyimlər və bəzək-zinət əşyaları mühüm yer tutur. Məqalədə XX əsrin 50–60-cı illər ədəbiyyatının bədii dildə işlənmiş geyim və zinət əşyaları ilə bağlı ən çox istifadə olunan adları müəyyən etməyə cəhd göstərmişik.

Çoxsaylı mərasimlər arasında xalqımızın toy və toylarla bağlı olan adət-ənənələr xüsusi seçilir, dilimizin lüğət tərkibinin bu sahəsi bədii üslubda aydın şəkildə ifadə olunur. Təhlil göstərir ki, mərasimlərdə, əyləncələrdə, müxtəlif oyunlarda çoxlu sayda üst geyim, papaq, ayaqqabı və bəzək əşyalarını ifadə edən adlar mövcuddur. Bu məqalədə Azərbaycan dilinin bədii üslubunda işlənən bəzi bəzək əşyalarının leksik-semantik xüsusiyyətləri və bu adların xalqın etnik-mədəni kimliyindəki yeri etnoqrfik aspektdən təhlil edilir. Mövzu həm dilçilik, həm də etnoqarfiya sahəsində tədqiqatlar üçün aktualdır. Dilimizdə işlənən bəzək əşyaları xalqımızın tarixi yaddaşını, estetik dəyərlərini və dünyagörüşünü özündə əks etdirib qoruyan vacib elementlərdəndir. Bu vahidlər əsərin koloritini artırmaqla yanaşı, mədəni irsimizin daha dərindən öyrənilməsinə şərait yaradır. Bu tədqiqat Azərbaycan dilinin bədii üslubunda az araşdırılan bir mövzuya həsr olunduğu üçün aktualdır. Məqalədə ilk dəfə olaraq XX əsr 50–60-cı illər Azərbaycan dilinin bədii üslubunda işlənən bəzək əşyası adlarının etnoqrfik təhlilinə yer verilmişdir. Bu adların obrazlı şəkildə istifadəsi xalqın mədəniyyət və məişətini dil vasitəsi ilə əks etdirir, eyni zamanda dil və mədəniyyət arasındakı əlaqəni yeni rakursdan araşdırmağa şərait yaradır.

Məqalədə əsas məqsəd bəzək əşyalarının adlarının bədii üslubda işlənmə xüsusiyyətlərini və onların etnoqrafik köklərini araşdırmaqla dil və mədəniyyət əlaqəsindəki rolunu müəyyənləşdirməkdir.

Metodlar

"Azərbaycan dilinin bədii üslubunda bəzi bəzək əşya adlarının etnoqrafik təhlili" mövzusunda tədqiqat apararkən əsasən leksik-semantik, etnoqrafik**,** müqayisəli-tarixi yanaşma və struktur-semantik təhlil metodlarından istifadə edilmişdir. Leksik-**s**emantik təhlil vasitəsilə bu adların mənşəyi və semantik xüsusiyyətləri, etnoqrafik metod ilə bəzək əşyalarının cəmiyyətdəki funksiyası, məsələn, onların sosial status və adət-ənənələrdəki rolu araşdırılmışdır. Müqayisəli-tarixi yanaşma ilə müxtəlif dövrlərdə bu adların inkişaf tarixini və necə dəyişdiyini öyrənmək mümkün olmuşdur. Struktur-semantik təhlil isə bəzək əşya adlarının morfoloji və semantik quruluşlarını açıq şəkildə müəyyən etməyə imkan yaratmışdır. Bu yanaşmaların kombinasiyası tədqiqatın zənginliyini artıraraq orijinal nəticələrə gətirib çıxarmışdır.

Nəticələr

Azərbaycan dilinin bədii üslubunda işlənən bəzi bəzək əşya adlarının lüğət tərkibindəki yerini və semantik xüsusiyyətlərini öyrənmək, dilin inkişafını və mədəniyyətin təşəkkülünü anlamaq ən vacib məsələlərdən biri kimi dəyərləndirilir. Bu adların etnoqrafik məzmunu, sosial funksiyaları, mənaları açıqlanaraq dilimizdəki bəzək əşyası leksikasının həm linqvistik, həm də etnokulturoloji dəyəri ortaya qoyulur. Aparılan araşdırma göstərir ki, bəzək əşya adlarının təhlili həm dilə, həm də mədəniyyətə aid olan tərəfləri birləşdirir. Tədqiqatın sonunda belə nəticəyə gəlmək olar ki, bəzək əşya adları yalnız dilin zənginliyini deyil, həm də xalqın dünyagörüşünü, həyat tərzini, mədəniyyətini özündə əks etdirir.

Müzakirə

Məlumdur ki, qədim zamanlardan xalqa məxsus olan bayram və onunla bağlı olan adət-ənənələr xalqın təsərrüfat həyatının müəyyən məqamları və cəmiyyətin maddi şəraiti ilə birbaşa əlaqəli olmuşdur (Azərbaycan etnoqrafiyası, 2007). Bayram keçirilən məkanlar ənənəvi olaraq əvvəlcədən müxtəlif şəkildə toxunmuş süfrələr, kilimlər, xalçalarla bəzədilər, tədbir iştirakçıları mütləq bayram libasında olar, xüsusilə qadınlar və gənc qızlar bu gün üçün özəl olaraq müxtəlif zinət əşyaları taxardılar.

Azərbaycan xalqının toy adət-ənənələrində geyim və zinət əşyalarının lüğəti sözlərin zənginliyi ilə diqqəti cəlb edir. Toy mərasimlərində icra olunan adət-ənənələr məcburi bir sistem olaraq, davranış və etiket normaları, geyim, təcrübə və ənənələr toplusudur. Geyim mərasimin məcburi komponentlərindən biri hesab edilir və hər qadın özünəməxsus geyimlə fərqlənir.

Cəmiyyətin inkişafı nöqteyi-nəzərindən zəruri, düzgün, mənəvi, fiziki və əxlaqi keyfiyyətləri nəsildən-nəsilə ötürmək vacibdir. Adət-ənənələrdə, əyləncələrdə, oyunlarda və

s. geyim və zinət əşyalarının adları mühüm yer tutur. Azərbaycan xalqının dilçilik, etnolinqvistika, etnoqrafiya və mədəniyyətşünaslıq elminin inkişafında geyim, papaq, ayaqqabı lüğətinin özünəməxsus rolu var. Azərbaycan xalqına məxsus olan qadın zərgərlik məmulatları etnoqrafik və tarixi baxımdan geniş şəkildə öyrənilmiş, lakin Azərbaycan dilində bu əşyaların adları xüsusi tədqiqat obyektinə çevrilməmişdir.

A. İ. Qoqolevin "Yakutlar: etnogenez problemi və mədəniyyətin formalaşması" monoqrafiyasında türk xalqlarının ornamentlərinin müqayisəli təhlilinə cəhd edilmişdir (Qoqolev, 1993). Əsərdə türk xalqlarının qadın zinət əşyalarının bəzi adları verilmişdir. A. A. Savvinov yakut qadın zərgərlik sənətinin öyrənilməsinə mühüm töhfə vermişdir. O, ənənəvi zərgərlik məmulatlarının bəzi adlarını (sırğa, üzük, bilərzik, kəmər və s.) buryatların, qazaxların, qırğızların, monqolların, tuvanların, türkmənlərin, tatarların, özbəklərin, xakasların və altayların oxşar terminləri ilə müqayisəli şəkildə vermişdir (Savvinov, 2001).

Məqalədə "sırğa" leksik-semantik sahəsi təhlil edilmiş və sahə daxilində leksik-semantik qruplar müəyyənləşdirilmişdir. Bu məqsədlə aşağıdakı vəzifələrin həyata keçirilməsinə nail olmağa çalışılmışdır:

1. "sırğalar" termini ilə bağlı leksik vahidləri müəyyən etmək;
2. yuxarıdakı sahə daxilində leksik-semantik qrupları müəyyənləşdirmək.

Tədqiqatın aktuallığını şərtləndirən əsas cəhət Azərbaycan dilində qadın bəzək əşyalarına dair kifayət qədər məlumatın olmamasıdır.

Bu tədqiqat üçün aşağıdakı üsullar tətbiq edilmişdir: "Sırğa" termini ilə bağlı leksik vahidləri müəyyən etmək üçün lüğət materialının seçilməsi üsulundan istifadə olunacaq.

Məqalədə XX əsrin 50–60-cı illəri Azərbaycan dilinin bədii üslubunun materialları əsasında Azərbaycan qadın zərgərlik məmulatlarının lüğət tərkibinə, xüsusən də "sırğa" leksik-semantik qruplarına daxil olan leksik vahidlərə nəzər salınmışdır.

Azərbaycan dilinə məxsus olan lüğətlərdə "altun küpə", "tana", "güşvarə" termini kifayət qədər geniş şəkildə açıqlanmışdır (Azərbaycan etnoqrafiyası, 2007).

Digər türk dillərində: çuv. śürüɣ "üzük", çuv. śərə, śørə "üzük", Tat. cözök, tur., çaqat. yüzük - eyni; Həmçinin çaqat. isirɣa, usurɣa "qulaq asqıları", türkm., karaim., kıpç., karaç., balk., tat., qazax., qırğız., oirat., tel., leb., şor., kuer. syrɣa "sırğa" şəklində olan söz "qulaqlara taxılan zinət əşyasıdır", bu məqsədlə qulaqda xüsusi dəliklər açılır.

Fasmerin və Şanskinin etimoloji lüğətində sırğa sözünün mənşəyi aşağıdakı kimi qeyd olunur:

1. "Qədim rus dilinə türk dilindən syrɣa "sırğa" < "üzük" daxil olub, sözün əsl mənasında –"üzük şəklində qulaq asqıları" kimi verilmişdir (https://lexicography.online/etymology/shansky).
2. Bir çox türkoloq alim "sırğa" sözünün "asmaq" feilindən əmələ gəldiyini və sözün ilkin formasının *asırğa* olduğunu düşünür. Çaqatay dilində "astiq" – hörüklərdən və

pullardan düzəldilmiş qadın bəzəyi; Azərbaycan türkcəsində "*astığ*" – qadın sırğası, Türkiyə türkcəsində "*asım takım*" – qadınların taxdığı süs əşyası (https://lexicography.online/etymology/shansky).

Maraqlıdır ki, Xakas dilinin koybal və kaçin dialektlərində "*ak sırğa*" ifadəsi "sirkə" (bit yumurtası) anlamına gəlir. Qazax dilində "*sirkiremek*" – çisəmək (yağış yağmaq); Çuvaş dilində "*şarkalanmak*" – damla-damla tökülmək (şeh mənasında). Tatar, başqırd, çuvaş dillərində "sirkə" həm də "çiçək tozu" deməkdir.

Sırğalar sözün əsl mənasında – üzük şəklində qulaq asmaları olub, türk mənşəli "syrqa", "yzyrqa", "isarqa", "isirqa" sözlərindəndir. Lüğət vahidi "sırğa" bu növ zərgərlik üçün ümumiləşdirici nüvə sözü hesab edilir.

Azərbaycan "sırğa"ları ayrı-ayrı leksik vahidləri bildirən, aşağıdakı leksik-semantik qrupları təşkil edən müxtəlif forma və növləri ilə seçilir. Tədqiqat nəticəsində XX əsrin 50–60-cı illər bədii əsərlərinin dilində "sırğa" terminina aid olan 2 leksik vahid üzərində dayanacağıq. Bundan əlavə, müəyyən edilən faktlarının leksik-semantik təhlili aparılmış, tədqiq olunan terminin dörd leksik-semantik qrupu müəyyənləşdirilmişdir:

I qrup istehsal materiallarının daxil olduğu leksik vahidlərdən ibarətdir.

II qrupa bu növ bəzək formasını əks etdirən leksik vahidlər daxildir.

III qrupa dxil olan bu növ bəzək əşyaları təkcə real obyekt deyil, həm də emosional və estetik təsirin vasitəsi kimi işlənir.

IV cəhətdən isə bu vahidlərin frazeologizmlərdə istifadəsidir. Məsələn: "sırğaya çevirmək", "üzüyün qaşı kimi" şəklində deyimlər.

Asırğası altunnan
Keçir dərə altından,
Üzüyümün qaşı var,
Yığvalımın yaşı var.

Birinci misradakı "asırğa" sözü "sırğa" mənasındadır. Mənbələrdə də, göstərilir ki, bu gün qadınların qulaqlarından asılan bəzək əşyası vaxtı ilə "asırğa" adlanmış, sonradan "a" səsi düşərək "sırğa" fonetik formasında işlənmişdir (Akimov, 2015).

ADİL-də sırğa "qadınların qulaqlarına taxdıqları qızıl, gümüş və s. məmulatdan hazırlanmış müxtəlif formalı bəzək; tana, brilyant sırğa, yaqut sırğa" kimi izah edilmişdir (Azərbaycan dilinin izahlı lüğəti, 2006).

XX əsr 50–60-cı illər bədii dil nümunələrində "sırğa" terminina rast gəlinir:

– Ərknaz heç kəsin ağlına gəlməyən sırğalar, klonlar, qolbaqlar, bilərziklər, boyunbağılar, sancaqlar sifariş elərdi (M. Hüseyn).

Naznaz şəhərdə çox qalmadı, üzüyü, boyunbağını, sırğanı alıb qayıtdı (M. İbrahimov).

Deyir Qəhrəmanov arvadına bir cüt sırğa alıb (R. Rza).

Azərbaycan dilində zərgərlik əşyası "sırğa" terminində *tana, küpə* sözləri də sinonim kimi istifadə edilir. Bu terminlərdən "sırğa" daha çox işləkdir.

Tana – Azərbaycan dilinin Qazax – Gəncə şivələrində "sırğa" mənasında işlənir.

Əridib qəlbində qızıl eşqini
Könül qulağınçın yaparkən tana.
Şair yeni-yeni sözlər bulacaq,
Kainat olduqca, şeir olacaq
(M. Müşfiq).

Aşıq Ələsgərin yaradıcılığında "sırğa" mənasında üç söz qeydə alınmışdır: "Guşumda sırğadı, sinəmdə dağdı", "Guşunda güşvarə, qızıl tanası".

Güş – (quş) "qulaq" mənasındadır, "Cüşvarə" qulağa taxılan bəzək əşyasının adıdır ("sırğa").

Qulaq zinət əşyaları Azərbaycanda zaman-zaman "altın küpə", "tana", "güşvarə", "sırğa" və başqa adlarla tanınmış, çox geniş çeşiddə hazırlanmışdır. "Darağı", "səbəti", "gilasi", "lolu", "kufə", "minarə", "piyalızənn", "buta", "badamı", "heydəri", "aypara", "yarpaq", "qozalı", "fındığı", "piyalə", "pərəkli", "qırxdüymə", "satıl", "üçdüymə","zanqaguş", "ətəkli", "şarlı" və s. sırğa növləri uzun zaman Azərbaycan qadınlarının istifadə etdiyi bəzək əşyası arasında üstün yer tutmuşdur.

Sırğalar heç vaxt dəbdən düşməyən zinət əşyası olmuş, müxtəlif dövrlərdə onlardan sehrli amulet, utancverici nişan, fərqlənmə nişanı və ya ən sevimli zinət əşyası kimi istifadə edilmişdir. Qulaqların bəzədilməsi ibtidai dövrlərdə adət olmuş, uzun əsrlərdən sonra bu bəzəklər nəcib metallar və qiymətli daşlarla əvəz olunmuşdur.

Assuriyada və Misir krallığında sırğalardan yuxarı təbəqənin– kahinlərin və məmurların rifah səviyyəsini simvolizə atributu olaraq istifadə edirmişlər. Şərq sivilizasiyalarında – Hindistan və Çində isə qızıl, gümüş, yaqut, sapfir, zümrüd daşlı sırğalar yüksək qiymətləndirilirmiş. Şərq zərgərləri hər cür forma və naxışlarla sırğalara gözəllik qatırdılar.

Qədim Misirdə sırğaları zənginliyin simvolu kimi yalnız cəmiyyətdə yüksək mövqe tutanlar taxa bilərdilər. Qulağında zinət əşyası olanlar üçün xüsusi imtiyazlar var idi. Bu günə qədər fironların və kahinlərin məzarlarında qiymətli daşlarla çoxlu qızıl zinət əşyalarına rast gəlinir.

Orta əsrlərdə Avropada sırğa taxmaq kilsə tərəfindən qadağan olunmuşdu, çünki Allahın verdiyi bədəni dəyişdirmək, qulaqları deşmək günah sayılırmış. Katolik kilsəsi zinət əşyalarını şeytani vəsvəsə, qulaq deşilməsini isə böyük günah hesab edərək qınayırmışlar. Kilsə iyerarxları hesab edirmişlər ki, insanın bədənini dəyişmək Allahın iradəsinə zidd getmək deməkdir, çünki insan "Allahın surətində" yaradılmışdır. Sırğalar oğruların, quldurların və qaraçıların istifadə etdiyi əşyalar imiş. Piratlar üçün sırğa müvəffəqiyyətlə ələ

keçirilmiş xəzinə və ya gəmini simvolizə edirmiş. Qaraçı uşaqları gənc yaşlarından sırğadan talisman kimi istifadə edirmişlər. Oğrular arasında deşilmiş qulaq sosial normalara hörmətsizlik demək idi. Uzun səyahətlərə çıxan tacirlər və dənizçilər qiymətli metallardan hazırlanmış sırğa taxırmış ki, ölüm halında insanlar onları sırğa müqabilində xristian qanunlarına görə dəfn etsinlər.

Qədim Romada isə qulaqda sırğanın mənası tamamilə fərqli idi. Bu, qulları azad insanlardan asanlıqla fərqləndirmək məqsədi ilə istifadə edilən işarə imiş. Əvvəllər Qədim Yunanıstanda sırğaları dolanışıq üçün öz bədənlərini satanlar taxırdılar. Yalnız Roma və Yunanıstanda uzun müddət keçdikdən sonra həm qadınlar, həm də kişilər qulaqlarında bahalı daşlar olan zinət əşyaları taxmağa başlamış, lakin onların mənşəyinin biabırçı tarixi əbədi olaraq yaddaşlarında həkk olunmuşdur.

"Sırğa" sözü rus dilinə türkcədən daxil olmuş və hərfi mənada "üzük" kimi tərcümə olunmuşdur. Bu addan belə qənaətə gəlmək olar ki, ilk sırğalar yalnız üzüklər şəklində hazırlanmışdır. Əvvəlcə sırğalar qadınların deyil, kişilərin zərgərlik əşyaları kimi ortaya çıxmışdır. Onların ilk qeydləri 7 min ildən çox əvvələ aiddir.

Rusiyada oğlanlar sırğanı yalnız bir qulağında – solda, xəstəliklərə qarşı talisman kimi istifadə edirmişlər.

Misdən və ağacdan hazırlanmış sırğaları isə, adətən, kəndlilər taxırmışlar. Tacirlər daha incə zinət əşyalarından – gümüş sırğalardan istifadə edirmişlər. Knyazlıq ailəsinin üzvləri isə zümrüd və yaqutlarla bəzədilmiş sırğalar ilə seçilirmişlər. Qədim Rusiyada isə həm kişilər, həm də qadınlar hər zaman sırğadan istifadə edirmişlər.

XIV–XVII əsrin əvvəllərində sırğalar yenidən dəbdən düşdü. Adi insanlardan fərqli olaraq tacirlər, boyarlar, hərbçilər və şəhər əhalisi qulaqlarını deşməkdən imtina etdilər.

19-cu əsr zadəganlar dövrü olaraq möhtəşəm paltarları, incə naharları və zinət əşyaları ilə fərqlənirdi. Sırğalar sadəcə bəzək deyil, ailənin müəyyən təbəqəyə mənsub olmasının göstəricisi hesab olunurdu. Varlılar qızıl və gümüşdən, kasıblar isə misdən və ya sadəcə taxtadan sırğalar taxırdılar.

Sırğaların özünəməxsus simvolizmləri var imiş. Belə ki, kazak ailələrində sol qulağında sırğa olan tənha ananın yeganə oğlu, sağda – ailənin yeganə təminatçısı, hər ikisində – ailənin sonuncu oğlu, ailənin davamçısı və təminatçısı mənasını ifadə edirmiş. Ataman kazak ailəsini qorumaq üçün belə insanların qayğısına qalır, onları riskə atmamağa çalışırmış.

XX əsrin birinci yarısında kişilər üçün sırğa taxmaq adət olmasa da, əsrin sonunda bu, dəb olaraq yenidən qayıtmışdı.

Nəticə

Bəzək əşyalarının adları Azərbaycan bədii dilində təkcə maddi mədəniyyət nümunəsi olaraq deyil, eyni zamanda tarixi yaddaş və mədəni kimlik daşıyıcısı kimi çıxış edir. Onların işlənmə formaları həm etnoqrafik gerçəkliyi, həm də bədii təsvir estetikasını bir vəhdətdə təqdim edir. Bu tip tədqiqatlar Azərbaycan dilinin mədəni yükünü, obrazlılıq imkanlarını və xalqın həyat tərzi ilə əlaqəsini daha dərindən anlamağa imkan yaradır. Eyni zamanda bu mövzu milli mədəniyyətin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından da mühüm əhəmiyyətə malikdir.

Ədəbiyyat

1. *Azərbaycan dilinin izahlı lüğəti.* (2006).
2. *Azərbaycan etnoqrafiyası.* (2007.)
3. Əhmədov, B. (2015). *Etimologiya lüğəti*.
4. Акимова, А. (2015.) *Якутские термины традиционных женских ювелирных украшений.*
5. Габидуллина, А., Абдуллина, Г. (2016). *Этнолингвистическое значение лексики одежды и украшений.*
6. Герасимова, Ю., Кирилова, О. (2018). *Гендер и аспекты идентичности в в костюме различных эпох и народов.*
7. Гоголев, А. (1993). *Якуты (проблемы этногенеза и формирования культуры)*
8. Саввинов, А. (2001). *Традиционные металлические украшения якутов XIX – начала XX века.*
9. https://lexicography.online/etymology/shansky
10. https://sozluk.gov.tr/